*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

15 OKTYABR 2022-Cİ İL № 019 (166)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## CENEVRƏDƏ RUSİYA-GÜRCÜSTAN DANIŞIQLARININ YENİ MƏRHƏLƏSİ BAŞLAYIB



Cənubi Qafqazda təhlükəsizliyin və stabilliyin təmin olunması ilə bağlı Rusiya-Gürcüstan danışıqlarının yeni mərhələsi 10 aylıq fasilədən sonra Cenevrədə baş tutub. Bu barədə Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsalia məlumat verib.

Danışıqlarda Gürcüstan nümayəndə heyətinə başçılıq edən Laşa Darsalia onu da əlavə edib ki, Cenevrədə danışıqların aparılması ilk növbədə ona görə vacib nailiyyətdir ki, Gürcüstan-Rusiya münaqişəsi beynəlxalq ictimaiyyətin gündəliyində əsas məsələlərdən biridir: "Gürcüstanın Avropa İttifaqı, BMT, ATƏT və ABŞ-dan olan tərəfdaşlarının səyləri, bu gün keçirilən danışıqların baş tutmasında vacibdir".

Həmçinin o da qeyd olunub ki, Cenevrədə son danışıqlar prosesi keçən ilin 7-8 dekabr tarixlərində baş tutub. Bu ilin mart ayında növbəti danışıqlar prosesi keçirilməli olsa da, sonradan ləğv olunub. Aprel ayında isə məlum olub ki, BMT, Avropa İttifaqı (Aİ) və ATƏT təmsilçilərindən ibarət həmsədr üçlüyün təşəbbüsü ilə Cenevrədəki müzakirələr dondurulubmuş.

Xatırladaq ki, Cənubi Qafqazda təhlükəsizliyin və stabilliyin təmin olunması üçün beynəlxalq səviyyəli müzakirələr 2008-ci ildən etibarən Cenevrədə həyata keçirilir və BMT, Aİ və ATƏT-in xüsusi nümayəndələrinin vasitəçiliyi ilə Abxaziya, Rusiya, Gürcüstan, Cənubi Osetiya və ABŞ da danışıqlarda iştirak edir.

## İLİA DARÇİAŞVİLİ: GÜRCÜSTAN ÜÇÜN BİR NÖMRƏLİ PRİORİTET REGİONUMUZDA SÜLH VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİDİR



Gürcüstan üçün bir nömrəli prioritet regionumuzda sülh və təhlükəsizliyin təmin edilməsidir. Bunu Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili jurnalistlərə açıqlamasında deyib.

O, bildirib ki, Gürcüstan bu məqsədlə hər zaman Ermənistan və Azərbaycan arasında vasitəçi rolu oynamağa hazırdır.

*"Faktiki olaraq ötən il Baş nazirin aktiv iştirakı ilə konkret nəticəyə nail olunub və bu proses davam edib. Bir neçə ay öncə biz hər iki ölkənin xarici işlər nazirlərinin görüşünə ev sahibliyi etdik. Bu bizim dostlarımızın bizə xüsusi etimadının olmasına nümunədir və biz gələcəkdə də cənub qonşularımızın danışıqlardan konkret nəticələr əldə edə bilməsi və regionumuzda sülh və sabitlik üçün sakit və dinc dialoq aparması üçün Gürcüstanın, Tbilisinin məkan olmasına hər zaman hazırıq. Bizim bu prosesdə hər hansı bir ön şərtimiz yoxdur, bizim qonşularımıza yeganə, bu gün və həmişə keçərli olan təklifimiz budur ki, ölkəmizdə istənilən məkanda və zamanda qonşularımıza ev sahibliyi etməyə və əgər ehtiyac duyarlarsa yardım etməyə hazırıq"*, - deyə İ.Darçiaşvili vurğulayıb.

## MƏCBURİ ABORTA GÖRƏ 4 İLDƏN 20 İLƏDƏK HƏBS CƏZASI TƏTBİQ EDİLƏCƏK



Gürcüstanda "məcburi abort" və qadının icazəsi olmadan hamiləliyin dayandırılması anlayışları Cinayət Məcəlləsinə daxil edilir.

Qanun layihəsi Avropa Komissiyasının tövsiyələri əsasında hazırlanıb və gender bərabərliyinin gücləndirilməsi, həmçinin qadınlara qarşı zorakılıq hallarının qarşısının alınması məqsədi daşıyır.

Qanun layihəsi qadının icazəsi olmadan hamiləliyin sonlandırılmasına görə 4 ildən 8 ilədək həbs cəzasını nəzərdə tutur. Bu hal irqi, dini, milli və etnik ayrıseçkilik səbəbilə, həmçinin başqa cinayət hadisəsinin ört-basdır edilməsi, orqan nəqli məqsədilə törədilərsə, cinayət məsuliyyətinin ağırlaşdırılması nəzərdə tutulur.

Qanun layihəsinə görə, qadının icazəsi olmadan aparılan abort onun ölümü ilə nəticələndikdə xüsusi amansızlıq halı kimi qiymətləndiriləcək və bu hala görə 15 ildən 20 ilədək və ya ömürlük həbs cəzası nəzərdə tutulacaq.

Gürcüstan Cinayət Məcəlləsinə dəyişiklikdən sonra qadını hamiləliyini başa çatdırmağa məcbur edilməsinə görə 2 ildən 6 ilədək, ağırlaşdırılmış şərtlərdə isə 7 ildən 11 ilədək həbs cəzası nəzərdə tutulacaq.

*Səh. 2* BƏZƏN MƏDƏNİ SURƏTDƏ PAMBIQLA BAŞ KƏSMİRLƏR, BİRBAŞA BAŞI BƏDƏNDƏN AYIRIRLAR - Aygül İsayeva yazır

*Səh. 3* ÖLKƏDƏKİ DÖVLƏT TEATRLARININ HEÇ BİRİNDƏ TƏCRÜBƏ PROQRAMI YOXDUR - Anar Rafiqoğlu yazır

*Səh. 4* ŞAGİRDİN DAVRANIŞ KODEKSİ

*Səh. 5* BƏS OĞLANLAR HANI? - Çiyalə Osmanova yazır

*Səh. 5* DƏRDLƏR - Aytən Fətullayeva yazır

*Səh. 6* TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

*Səh. 7* NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

*Səh. 7* GÜRCÜSTANDA SON ÜÇ İLDƏ 33 400 CÜTLÜK BOŞANIB

# BƏZƏN MƏDƏNİ SURƏTDƏ PAMBIQLA BAŞ KƏSMİRLƏR, BİRBAŞA BAŞI BƏDƏNDƏN AYIRIRLAR

## Sual olunur, 12 il ərzində şagirdlərə gürcü dilini öyrətməyi bacarmayanlar, 5-6 aya 60 yaşında müəllimə B1 səviyyəsində gürcü dilini öyrətməyi necə düşünürlər?



Gürcüstanda təhsil sistemində dəyişikliklər kosmik sürətlə baş verir. Hətta o qədər sürətlə ki, məsul şəxslərə sual ünvanlayanda özləri belə sual qarşısında aciz qalırlar. Gecə yatıb yuxuda gördüklərini səhər ayılanda sistemdə tətbiq etməyə çalışırlar.

Bir dəfə qərara gəldilər ki, müəllimlər üçün statuslar tətbiq etsinlər. Çox fikirləşdilər, çox fikirləşdilər, sonda müəllimlər üçün "təcrübəçi müəllim", "baş müəllim", "aparıcı müəllim" və "mentor" statuslarını təyin etdilər. Sovet dövründə universiteti bitirmiş, 20, 30, 40 illik təcrübəsi olan müəllimlər "təcrübəçi müəllim" statusunu aldılar. Bir az qəribə səslənir, deyilmi? 30 illik iş stajı olan müəllim məktəbə təzə işə düzəlib təcrübəmi keçir ki, ona "təcrübəçi", "praktikant" adını verək...

Müəllimlərin statuslarının artması (təcrübəçi müəllim imtahan verib baş müəllim statusunu alır, baş müəllim aparıcı müəllim, aparıcı müəllim isə sonda mentor müəllim statusunu alır) onların maaşlarında da nəzərə çarpacaq dərəcədə artımın olması deməkdir. Çox gözəl, çox pakizə. Amma di gəl ki, sistem elə qurulub ki, bir çox müəllimlərimiz hələ ki, baş müəllim statusunu almaq üçün dəridən-qabıqdan çıxırlar. O qədər ***süni maneələr*** yaradılır ki, kənardan müşahidə edənlərin də müəllim olmaq həvəsi itir, arzusu ürəyində qalır. Sonra da deyirlər ki, niyə müəllim olmaq istəyən yoxdur.

Əvvəllər baş müəllim statusunu almaq üçün ümumilikdə 19 kredit toplamaq lazım idi (ixtisas fəndən imtahan – 10 kredit; ümumi bacarıqlar üzrə imtahan – 5 kredit; iki açıq dərsin keçirilməsi – 4 kredit). İxtisas fəndən maksimum, yəni 10 kredit toplamaq tələb edilirdi. Təsəvvür edin ki, Azərbaycan məktəblərində dərs deyən əksər etnik gürcülər öz ixtisasından, "Gürcü dili və ədəbiyyat"dan imtahan verib 10 kredit toplaya bilməmişdi. Narahat olmayın, hazırda həmin müəllimlərin baş müəllim, hətta aparıcı müəllim statusları var. Necə? Çünki nazirliyin məsul şəxslərinə yuxuda yenidən vəhy gəldi, qaydaları yenidən dəyişməyə qərar verdilər, ixtisas fəndən 1 kredit, eləcə də 10 kredit toplayanlar arasında fərq qoymadılar. 1 kredit toplayan da, 10 kredit toplayan da ixtisas fənn üzrə imtahandan keçmiş hesab edildi.

Dərd burasındadır ki, bizim kifayət qədər çox savadlı müəllimlərimiz, öz ixtisas fənlərindən maksimum bal, yəni 10 kredit toplayan müəllimlərimiz uzun müddətdir ki, baş müəllim statusunu ala bilmirdilər, hazırda da ala bilmirlər. Bilirsiz niyə? Çünki ikinci mərhələdə ümumi bacarıqlar üzrə (el arasında məntiq deyirlər) imtahan gürcü dilində təşkil edilirdi. Nəticədə öz ixtisasından yüksək bal toplayan 50, 60 yaşında olan müəllimlər baş müəllim statusu almaq üçün 2-ci mərhələni keçə bilmirdilər. Ədalət naminə onu qeyd edim ki, ixtisas fəndən müəllimlər öz ana dillərində imtahan verə bilirdilər. Ancaq 2-ci mərhələdə süni maneələrlə üzləşirdilər.

Təhsil nazirliyinə imtahan təşkil olunarkən yaş qruplarının nəzərə alınmasını təklif etmişdik. Nisbətən yaşlı müəllimlərin ümumi bacarıqlar üzrə imtahanı Azərbaycan dilində verməsi üçün şərait yaradılmasını xahiş etmişdik. Sovetlər dövründə universiteti bitirənlər üçün ana dilində, müstəqil Gürcüstanda universiteti bitirən gənclər üçün isə gürcü dilində olmasını təklif etmişdik. Başqa bir təklif isə imtahanların ümumilikdə bir neçə dildə, ölkədə yaşayan etnik azlıqların dillərində olmasını və müəllimlərin imtahan verərkən dil seçimində azad olması idi. ***Axı biz "tolerant", "multikultural", Avropa dəyərlərinə doğru irəkləyən bir ölkədə yaşayırıq.***

Yenə də çox fikirləşdilər, çox fikirləşdilər, sonda belə bir qərara gəldilər ki, əgər 50-60 yaşında olan müəllim ümumi bacarıqlar üzrə imtahanı gürcü dilində verə bilmirsə, o zaman biz bu 2-ci mərhələni də bir neçə yerə bölək və baş müəllim statusunu almaq prosesini bir qədər də uzadaq. Yenə də çox düşündülər, çox düşündülər, sonda belə qərara gəldilər ki, əgər Sovet dövründə universiteti bitirən, öz ixtisas fənnindən maksimum bal toplayan, çox savadlı 50-60 yaşında olan müəllim gürcü dilində təşkil olunan ümumi bacarıqlar üzrə imtahanı verə bilmirsə, elə isə gəlin 1-ci gürcü dilini öyrədək (B1 səviyyəsində), sonra isə ümumi bacarıqlar üzrə gürcü dilində 48 saatlıq treninqlərə cəlb edək, treninqlərin keçirildiyi müddətdə 60 yaşında müəllimi məcbur edək ki, gürcü dilində müəyyən ev tapşırıqlarını yerinə yetirsin, treninqin sonunda isə test versin. **Evrika!** Necə də məntiqli bir qərardır.

50-60 yaşında bir müəllimdən B1 səviyyəsində gürcü dilini öyrənməyi tələb etmək gülüncdür. Müəllim nə qədər hazırlaşıb, əzbərləyib imtahanı versə belə 1 həftədən sonra öyrəndiyi yenidən yadından çıxacaq. Çünki yaşadığı mühit, işlədiyi müəssisədə işlətdiyi dil ancaq Azərbaycan dilidir. Məktəblərdə keyfiyyətli kadrlar elə də çatışmır. Çox savadlı, yaşlı müəllimin məktəbi tərk etməsi məktəb üçün böyük itkidir. Çox təcrübəli və savadlı müəllimin baş müəllim statusu ala bilməyib az maaşa, qəpik-quruşa işləməsi isə ədalətsizlikdir.

Baş müəllim statusunu almaq müəllimin maaşında ikiqat artım olması deməkdir. Təhsil nazirliyi büdcədən xeyli pul ayırır, etnik azlıqlar üçün A1, A2, B1 səviyyəsində gürcü dilini tədris edəcək müəllimlərə, eləcə də 48 saatlıq treninqləri keçənlərə xeyli maaş verir. A1, A2, B1 səviyyəsində gürcü dilini öyrədən isə nə Azərbaycan dilində danışa bilir, nə də rus dilində. Nəticədə 50-60 yaşında olan müəllimlər bu kurslara qatılmaqla heç nə öyrənə bilmirlər. Bütün bu proses boş-boşuna büdcədən xərclənən pul və vaxt itkisidir. Ancaq kağız üzərində, hesabatda çox gözəl görsənir. Real nəticə, keyfiyyət isə sıfır səviyyəsindədir.

Gürcüstanda fəaliyyət göstərən Azərbaycan məktəblərində 12 il ərzində hər gün gürcü dili fənni keçirilir.

Sual olunur, 12 il ərzində şagirdlərə dil öyrətməyi bacarmayanlar, 5-6 aya 60 yaşında müəllimə B1 səviyyəsində gürcü dilini öyrətməyi necə düşünürlər?

12 il ərzində şagirdlərə gürcü dilini öyrədə bilmirlər, amma düşünürlər ki, 5-6 aya 50-60 yaşında müəllim gürcü dilini B1 səviyyəsində öyrənəcək, sonra da bu müəllim gürcü dilində 48 saatlıq treninqlərə qatılacaq, gürcü dilində ev tapşırıqları edəcək və sonda gürcü dilində test yazacaqmış. Boş-boşuna xərclənən pul və vaxt itkisidir.

Gəlin yenə qayıdaq bizim kosmik sürətlə dəyişən təhsil nazirliyinə. Bu ilin yanvar ayından ixtisas fəndən 10 kredit toplayanlara birbaşa baş müəllim statusu verdilər. Yaz aylarında yağış yağdı, bərk külək əsdi, bu ayları birtəhər yola verdik, qızmar yay günlərində baş şişdi, çox fikirləşdilər, çox fikirləşdilər, sonda belə qərara gəldilər ki, öz ixtisasından 10 kredit toplayanlara və diplomunda ancaq "müəllim" yazılanlara baş müəllim statusu verək. İxtisas fəndən 1, 3, 7 kredit toplayanlar gürcü dili üzrə A1, A2, B1 səviyyələrini keçməli və 48 saatlıq treninqlərə qatılmalıdırlar. İxtisas fəndən 10 kredit toplayanlar, diplomunda "müəllim" yazılmayanlar da gürcü dili üzrə səviyyələri, eləcə də 48 saatlıq treninqləri keçməlidirlər. Qızmar yay günlərini yola verdik, sərin payız fəsli gəldi, çox düşündülər, çox düşündülər, sonda belə qərara gəldilər ki, fərq etmir ixtisas fəndən 1 və ya 10 kredit toplamısan, fərq etmir diplomunda "müəllim" yazılıb, ya yox, əgər Azərbaycanda universiteti bitiribsəndə mütləq və mütləq surətdə gürcü dili üzrə A1, A2, B1 səviyyələrini keçməli və 48 saatlıq treninqlərə qatılmalısan. Bir neçə ayda nə qədər qaydaları dəyişmək olar? Yanvar ayında baş müəllim statusu alanların bəxti gətirdi, yoxsa ki, 10 ildir sertifikatlaşdırma imtahanlarında iştirak edə bilməyən "Azərbaycan dili və ədəbiyyat" müəllimlərinin bəxti qaradır? Elə bilirsiz bununla da məsələ bitmiş hesab olunur? Xeyr! Azərbaycanda təhsilini başa vuran müəllimlər baş müəllim statusunu almaq üçün təzədən diplomlarını təsdiqlətməlidirlər. Görəsən, 30 il ərzində məktəbdə hansı diplomla dərs deyirdi? İşə qəbul ediləndə diplom təsdiq edilməmişdirmi? Müəllim 20, 30, 40 ildir ki, məktəbdə dərs deyir, onun diplomunda nə yazıldığı təzəmi yada düşdü? Bu müəllimlər hələ baş müəllim statusu almaq üçün dağa-daşa düşüblər. Aparıcı müəllim, mentor müəllim statuslarının alınmasından heç söhbət belə getmir.

Dövlət dilini bilmək vacibdir, mühümdür, önəmlidir. Sovetlər dövründə, eləcə də Sovetlər dağılandan sonra "keçid dövrü"ndə Azərbaycan məktəblərində gürcü dili normal tədris edilmirdi, ən zəif keçirilən fənn idi. Gürcü dilini keçən müəllim jurnalı stolun üstünə qoyub, 45 dəqiqəni "semiçka" çırtlamağa sərf edirdi. 90-cı illərin əvvəllərində, çox çətin bir dövrdə yaşayırdıq. Qaz yox, işıq yox, su yox. Hər sahədə korrupsiya, rüşvətxorluq, kriminal hökm sürürdü. Qamsaxurdiya, eləcə də Şevardnadzenin prezidentliyinin ilk dövrlərində ölkədə yaşayan etnik azlıqlara divan tutulurdu. Borçalı boşalırdı, sürətlə hamı ölkəni tərk edirdi. Gələcəyini Gürcüstanla bağlamaq ümidi sönürdü. Tbilisidə universitetdə oxuyanların sayı 2-3 nəfər olar, ya olmazdı. Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olmasına baxmayaraq çox çətin bir dövrdə öz dəstəyini əsirgəmədi. Bəlkə də ən böyük dəstəyi təhsilə etdiyi investisiya oldu, Gürcüstan vətəndaşı olan azərbaycanlıların 5 illik təhsil haqlarını qarşıladı (1 il gürcü dili hazırlığı, 4 il bakalavr). Nəticədə Gürcüstanın ali təhsil ocaqlarında təhsil alan, gürcü dilini mükəmməl bilən, Gürcüstan vətəndaş cəmiyyətinə inteqrasiya edən, öz gələcəyini Gürcüstanda görən gənclərimizin sayı minlərlə oldu.

Bu gənclərdən gürcü dilində treninqlərə qoşulmağı, B1 deyil, C1 səviyyəsində də gürcü dilini bilməyi tələb etmək olar. Ancaq 50-60 yaşında olan, öz ixtisasını çox gözəl bilən, öz ixtisasından yüksək bal toplayan müəllimdən gürcü dilini B1 səviyyəsində bilməyi tələb etmək, 20-30 illik təcrübəsi olan müəllimi "təcrübəçi" müəllim statusu altında çox az maaşa işləməyə məcbur etmək çox böyük ədalətsizlikdir, hətta təhqirdir.

90-cı illərdə, ən çətin dövrdə bu müəllimlər ölkəni tərk etmədilər, Azərbaycan məktəblərinin bağlanmasına imkan vermədilər. Kupona işlədilər, aldıqları 1 aylıq maaşa 1 çörək almaq mümkün idi. Bütün çətinliklərə sinə gərdilər, məktəbləri tərk etmədilər, elin, obanın gənclərini elmsiz, təhsilsiz, ziyasız qoymadılar. Bu müəllimlərin etdikləri fədakarlıqları heç unutmaq olarmı? Məhz bu fədakar müəllimlərin sayəsində dövrün çətinliklərini aşa bildik, məktəblərimiz tamamilə bağlanmaq təhlükəsindən sovuşdu. Məktəblərimizi yaşadan müəllimləri bu gün biz də yaşatmalı, dəyər verməli, dəstək olmalıyıq. Ədalətin bərpa olunması diləyi ilə... yola davam!

**Aygül İSAYEVA**
*İqtisadiyyat üzrə fəlsəfə doktoru*

## GÜRCÜSTAN TÜRKİYƏDƏN YENİ ZİREHLİ TRANSPORTYORLAR ALIR



Gürcüstan Türkiyədən NATO standartlarına uyğun yeni zirehli transportyorlar alır. Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, Türkiyə Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən "ASFAT" şirkəti ilə imzalanmış müqaviləyə görə, Gürcüstanın Müdafiə Qüvvələrinə NATO standartlarına uyğun yeni zirehli transportyorlar çatdırılacaq.

Gürcüstana veriləcək zirehli transportyorlar öz avadanlığı və alt sistemləri ilə NATO standartlarına uyğun olacaq.

Gürcüstan müdafiə qüvvələrinin sözügedən zirehli transportyorlarla təchiz edilməsi Gürcüstanın müdafiə qabiliyyətinin gücləndirilməsinə, həmçinin Türkiyə ilə Gürcüstan arasında əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verəcək.

Qeyd edək ki, 2019-cu ildə Türkiyə və Gürcüstan hökumətləri hərbi-maliyyə sahəsində əməkdaşlığa dair müqavilə imzalayıblar. Sənəddə Gürcüstanın Müdafiə Nazirliyinə 5 il müddətinə 100 milyon lari həcmində qrant ayrılması nəzərdə tutulub.

## GÜRCÜSTAN, AZƏRBAYCAN, TÜRKİYƏ XÜSUSİ TƏYİNATLILARININ BİRGƏ HƏRBİ TƏLİMLƏRİNİN AÇILIŞI OLUB



Gürcüstan, Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının "Qafqaz Qartalı - 2022" birgə hərbi təlimlərinin açılışı olub. Məlumatı Gürcüstanın Müdafiə Nazirliyi yayıb.

Məlumata əsasən, Mayor Gela Çedia adına Muxrovani xüsusi məqsədli təlim mərkəzində baş tutmuş açılış mərasimində əvvəlcə hər üç ölkənin dövlət himni səsləndirilib.

Tədbirdə Gürcüstanın Müdafiə Qüvvələrinin komandanının müavini, briqada generalı İrakli Çiçinadze, Gürcüstanın Xüsusi Əməliyyatlar Qüvvələrinin komandanı polkovnik Teymuraz Klateişvili, həmçinin Azərbaycanın Gürcüstandakı hərbi attaşesi polkovnik-leytenant Fuad İbrahimov, Türkiyənin Gürcüstandakı hərbi attaşesi polkovnik Burak Altıner və digər rəsmi şəxslər iştirak ediblər.

Qeyd olunub ki, təlimlərin məqsədi Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı bölmələrinin imkanlarının sinxronlaşdırılmasını və koordinasiyasını dərinləşdirmək, təcrübə paylaşımı etmək, çoxmillətli mühitdə komanda və idarətməni inkişaf etdirmək və qarşılıqlı əməliyyat qabiliyyətini artırmaqdır.

## İRAKLİ QARİBAŞVİLİ AZƏRBAYCANIN ENERGETİKA NAZİRİ İLƏ GÖRÜŞÜB



Azərbaycanın energetika naziri Pərviz Şahbazov Baş nazir İrakli Qaribaşvili ilə görüşüb.

Görüşdə Azərbaycanla Gürcüstan arasında yüksək səviyyəli münasibətlər, siyasi dialoq və uğurlu enerji əməkdaşlığının mövcudluğu vurğulanıb. Qlobal enerji layihələrinin birgə həyata keçirilməsi və Gürcüstanın enerji təhlükəsizliyinə davamlı töhfələr verilməsi strateji tərəfdaşlıq münasibətlərinin göstəricisi kimi qiymətləndirilib. Enerji əməkdaşlığının ikitərəfli və çoxtərəfli formatda inkişafını təmin edəcək layihələr və yeni imkanlar dəyərləndirilib.

Baş nazir İrakli Qaribaşvili Azərbaycanı etibarlı strateji tərəfdaş və Gürcüstanın enerji təchizatında əsas rol oynayan ölkə adlandırıb. Regionda sabitliyə və inkişafa xidmət edəcək enerji layihələri üzrə əməkdaşlığa dəstəyini ifadə edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanla münasibətlərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verdiyini deyən energetika naziri Pərviz Şahbazov enerji əməkdaşlığını dərinləşdirəcək imkanları diqqətə çatdırıb.

Görüşdə Azərbaycan və Gürcüstanın enerji sistemlərinin ötürülmə imkanlarının artırılması, Azərbaycandan ixrac edilən elektrik enerjisinin Türkiyə və Avropa ölkələrinə nəqlinin təmin edilməsi ilə bağlı görülən işlər nəzərdən keçirilib. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı özündə birləşdirəcək Qara dəniz sualtı elektrik və rəqəmsal qoşulma layihəsinin reallaşdırılmasından irəli gələn məsələlər müzakirə edilib və bu layihənin ölkələr arasında münasibətlərdə yeni səhifə açacağı qeyd edilib.

Söhbət zamanı ikitərəfli münasibətlərin qarşılıqlı maraq doğuran digər istiqamətləri, eləcə də qlobal enerji bazarlarındakı vəziyyətə dair fikir mübadiləsi aparılıb.

## ÖLKƏDƏKİ DÖVLƏT TEATRLARININ HEÇ BİRİNDƏ TƏCRÜBƏ PROQRAMI YOXDUR



Anar RAFİQOĞLU
anar.rafiqoglu@gmail.com

Bu o deməkdir ki, dövlət teatrlarının heç biri gənclər yetişdirmək, onlara təcrübə qazandırmaq marağında deyil. Bu günlərdə məxsusi olaraq bütün nəhəng, iri büdcəli dövlət teatrlarına yazıb, onlardan teatra marağı olan gənclər üçün hər hansı bir təcrübə proqramlarının olub-olmadığını soruşdum. Hər biri konkret olaraq belə bir proqramın olmadığını bildirdi. Hətta həmin teatrlardan birinin verdiyi cavab olduqca tragikomik idi. Mənə bir az da ironiyalı şəkildə dedilər ki, "biz təhsil və təcrübə mərkəzi deyilik"!

Cılız olduğu qədər də, acınacaqlı bir cavab idi bu. Düşünün, bu cavabı verən şəxs dövlət teatrında çalışır və dövlətdən əməkhaqqı alır. Amma ən bəsit bir şeyi bilmir ki, teatrın özü ən böyük məktəb və təhsil mərkəzidir. Və burada belə bir sual yaranır: əgər bu teatrlarda təcrübə proqramları mövcud deyilsə, ölkədə bu sahəyə marağı, bacarığı olan insanlar harada təcrübə qazanmalıdır? Axı teatr sadəcə aktyor və rejissordan ibarət deyil. Bunun rəssamı var, rejissor asistenti var, qrim ustası var, səs və işıq operatoru var, dekoratoru, rekvizitoru, səhnə işçiləri var. Bu saydığım peşə sahibləri harada işləməli və təcrübə qazanmalıdırlar? Niyə dövlətin yüz minlər, milyonlar ayırdığı teatrlar bu sahədə kadr hazırlamır, hazırlamadıqları yetmirmiş kimi, ən azından təcrübə qazanmalarına imkan yaratmırlar?

Sual yaranacaq ki, necə yəni hazırlamırlar, bəs teatrlarda bu sahədə çalışan insanlar yoxdurmu? Əlbəttə, var! Lakin bizim teatrların əksəriyyətinə nəzər yetirsək, görərik ki, orada çalışanların böyük əksəriyyəti ya bədii rəhbərin, ya direktorun, ya da kadrlar şöbəsinin müdirinin dostları, qohumları, ya da "yuxarıdan" birilərinin xahişi ilə qəbul etdikləri şəxslərdir. Bunu haradan bilirəm? Çünki özüm də illərlə dövlət teatrında çalışmışam. Və əksər teatrlarda dövran bu cür dövr eləyir. İstənilən dövlət teatrını ziyarət etsəniz görərsiniz ki, orada ayaqda güclə duran, 20-30 ildir çalışan, amma hələ də nə iş gördüyünü özü də bilməyən kadrlar var.

Vəziyyətin bu cür olmasına baxmayaraq, hələ sıxılmadan təcrübə proqramımız yoxdur deyirlər. Niyə yoxdur, bilirsiniz? Sabah səni, məni, onu, bizi hazırlasalar, təcrübə qazandırsalar, sonra məcburdurlar ki, o həmin yararsız kadrları işdən çıxarıb, yerlərinə bizi götürsünlər. Bu isə sərf etmir. Çünki həmin 30 illik işçilər itaətkardır, heç nəyə qarışmır, heç nəyə etiraz etmirlər. Sən isə kəsilməmiş qarpızsan. Gəncsən, enerjilisən, sabah hansısa bir məqamda bu elə yox, belədir deyə bilərsən. Artıq baş ağrısı lazımdır? Məsələn, o vaxtlar Tbilisi Dövlət Azərbaycan Dram Teatrında işlədiyim zaman bəzən iclas keçirilər və müəyyən məsələlər ortaya qoyulardı. Hərdən deyilirdi ki, filan ağsaqqalın işi və funksiyası nədir bu teatrda? Axı heç işə də düz-əməlli gəlib-getmir. O dəqiqə qiyamət qopurdu ki, "dəyməyin, toxunmayın, qoca adamdı, pulunu qazanır". Əlbəttə, hamının pul qazanması vacibdir. Amma zəhmətlə, əziyyət çəkərək qazanılması şərtilə. Yaşlı olduğu üçün onsuz da dövlət ona pensiya verir. Bəs işsiz qalan gənclər? Hansı ki, yeni ailə qurublar, övladları dünyaya gəlib və ən əsası, həmin işi də o ağsaqqaldan qat-qat daha yaxşı görə bilərlər.

Bizim Qafqazda, ümumiyyətlə, teatrda, sənətdə müəyyən uğur, təcrübə qazanmış şəxslər özlərini qoyurlar Everest dağının zirvəsinə. Elə davranırlar ki, sanki dünya bunların ətrafında dönür. Hansı ki, bir zamanlar onlar da təcrübəsiz, onlar da yolun başında idilər. Əksər dövlət teatrlarına getsəniz, görəcəksiniz ki, orada çalışanların 90 %-i sizə yuxarıdan aşağı baxır. Sizin gördüyünüz işləri bəsit, həvəskar işi, öz gördüklərini isə teatr tarixinə qızıl hərflərlə yazılmış, nadir tapıntı kimi təqdim edirlər. Bir də diplomlu-diplomsuz söhbəti edirlər ki, teatr və kino sahəsində bu mövzunun hələ də qabardılması olduqca gülüncdür. Böyük teatrların birinin bədii rəhbəri ilə söhbətimdə "Era Teatrı" haqqında danışıb, bundan da motivasiya gözləyirdim ki, sözümü kəsib, "aktyorlarınızın teatr və kino diplomu varmı?" deyə soruşdu. Yoxdur dedikdə isə qayıtdı ki, "onda siz teatr deyilsiniz". Müəllimə sual verdim ki, sizə teatr və kino universitetində ən çox hansı şəxsin yaradıcılığını keçirdilər? Qayıtdı ki, Çarli Çaplinin. Dedim onda sizin az öncə dediyinizdən belə çıxır ki, Çarli Çaplin sənətkar deyildi, çünki onun teatr və kino diplomu yox idi. Ümumiyyətlə, yaxın keçmişə qədər teatr və kino təhsili deyə bir şey mövcud deyildi. Yeri gəlmişkən, müəllimin səhnələşdirmək üçün əsərlərinə ən çox müraciət etdiyi yazıçı da Vilyam Şekspir imiş. Sadəcə orta təhsili olan Şekspir də görəsən bunların gözündə qeyri-peşəkar, istedadsız olaraqmı görünür? Əlbəttə ki, bütün bunlar ironiyadan ibarətdir. Gerçək isə odur ki, bu gün universitetlərdə, tarix kitablarında Çarli Çaplin, Vilyam Şekspir kimi diplomsuzlar qalıb, bəzi dırnaqarası diplomluları isə görək öldükdən sonra kimsə xatırlayacaqmı?..

# GÜRCÜSTANIN TƏHSİL VƏ ELM NAZİRİNİN SƏRƏNCAMI N79/ნ

YENİ YOL qəzeti

**2010-cu il 30 avqust, Tbilisi şəhəri**
**Şagirdin Davranış Kodeksinin təsdiqlənməsi barədə**

"Ümumi təhsil haqqında" Gürcüstan qanununun 26-cı maddəsinin birinci bəndinin "დ$^{1}$" altbəndinin, 281-ci maddəsinin 2-ci bəndinin "ლ$^{1}$" altbəndi və "Gürcüstanın Təhsil və Elm Nazirliyinin əsasnaməsinin təsiqlənməsi haqqında" Gürcüstan hökumətinin 2004-cü il 21 may N37 sərəncamı ilə təsdiqlənmiş əsasnaməsinin 2-ci maddəsinin 2-ci bəndinin "ვ.ი" altbəndi və 3-cü maddəsinin 2-ci bəndinin "დ$^{1}$" altbəndi əsasında **sərəncam verirəm**:

1. Əlavəyə uyğun olaraq Şagirdin Davranış Kodeksi təsdiqlənsin.
2. Sərəncam dərc edildikdən dərhal sonra qüvvəyə minsin.

**D.Şaşkin**

*Əlavə*

**ŞAGİRDİN DAVRANIŞ KODEKSİ**
**Başlıq I**
**Ümumi müddəalar**

**Maddə 1. Tənzimləmə predmeti**

1. Şagirdin Davranış Kodeksi (sonra Davranış Kodeksi) şagirdin davranış qaydalarını tənzimləyir. Şagird həmin davranış qaydalarına məktəbdə dərs prosesi aparılan, eləcə də məktəb tərəfindən təşkil edilmiş tədbirlərdə iştirak edən zaman riayət edir.
2. Davranış Kodeksi təhsil üçün şagirdin bilik əldə edəcəyi, bacarıqlarını və dəyərlərini formalaşdıracağı mühit və şəraitin yaradılmasına dəstək olur.
3. Məktəb bütün müəllimləri, şagirdləri və valideynləri Davranış Kodeksi ilə tanış etmək öhdəliyi daşıyır.
4. Məktəbin daxili nizamnaməsi Davranış Kodeksinə əsaslanmalıdır.

**Maddə 2. Davranış Kodeksinin məqsədi**

1. Davranış Kodeksinin məqsədi şagirdin davranışının vahid qaydalarını tətbiq etməkdir.
2. Davranış Kodeksi şagirdin öz hərəkətini idarə etməsinə, şagirdlərin nizam-intizama və qarşılıqlı hörmət bəsləməsinə, məktəbdə mehriban və təhlükəsiz təhsil mühitinin tətbiqinə dəstək olur.

**Maddə 3. Tənzimləmə sahəsi**

1. Davranış Kodeksi Gürcüstan vətəndaşı, xarici ölkə vətəndaşı olan və vətəndaşlığı olmayan bütün məktəb şagirdlərinə aiddir.
2. Məktəb rəhbərliyi, müəllimlər, məktəbdə işlə təmin olunmuş digər şəxslər və valideynlər Şagirdin Davranış Kodeksinin qorunmasına dəstək olurlar.

**Başlıq II**
**Şagirdin davranış qaydaları**

**Maddə 4. Müəllimə və məktəbdə işləyən digər şəxslərə münasibət**

1. Şagird müəllim və məktəbdə işləyən digər şəxslərlə münasibətdə həmişə nəzakətlidir və onları hər hansı şəkildə təhqir etmir.
2. Şagird məktəb direktorunun, müəllimin, məktəbdə işləyən digər şəxs və mandaturun qanuni göstərişlərinə tabe olur.

**Maddə 5. Şagirdlərlə münasibət**

Şagird digər şagirdlərlə nəzakətlə davranır, onlarla zorakılıq hədələrindən, böhtan və ya istehza xarakterli ifadələrdən çəkinir və onları hər hansı şəkildə təhqir etmir.

**Maddə 6. Şagirdin geyim qaydası**

Şagird məktəbə ümumtəhsil müəssisəsinə uyğun geyim və aksessuarlarla gəlir.

**Maddə 7. Şagirdin məktəb ərazisində, dərs prosesi və məktəb tədbirləri zamanı davranışı**

1. Şagird dərsə və ya məktəbin təşkil etdiyi digər maarifləndirici tədbirlərə vaxtında gedir.
2. Dərsdə olarkən şagirdin dərs prosesi üçün vacib olan əşyaları olur.
3. Şagird başqalarının hüququnu tapdalamadan fikir və baxışlarını ifadə edir.
4. Şagird dərs zamanı mobil telefondan və ya başqa texniki vasitədən qeyri-təhsil məqsədi ilə istifadə etmir.
5. Şagird müəllimə və başqa şagirdlərə dərs prosesi aparılan zaman mane olmur.
6. Şagird başqasının fikrinə və akademik işinə hörmətlə yanaşır, başqasının intellektual fəaliyyəti nəticəsində yaranan məhsulu özünə aid hesab etmir.
7. Şagird dini və siyasi təbliğat aparmır.
8. Şagird müəllimin icazəsi olmadan dərsi tərk etmir.
9. Şagird özünün, başqa şəxslərin və məktəbin əmlakından muğayat olur və ona ziyan vurmur.
10. Şagird məktəbdə və ətraf ərazidə təmizliyə riayət edir.

**Maddə 8. Məktəbdə qadağan olunan əşyalar**

*Şagird məktəbə qeyd olunan əşyalarla gəlmir:*

a) Tütün məhsulları;
b) Hər növ silah və ya silah kimi istifadə oluna biləcək küt əşyalar;
c) Alışqan və ya kibrit;
ç) Spirtli vasitələr;
d) Dərs prosesinə mane olacaq texniki vasitələr;
e) Dəyərli əşyalar və ya böyük miqdarda pul;
ə) Qumar oyunu üçün vasitələr;
f) Ədəbsizliyi təsvir edən əşyalar;
g) Narkotik vasitələr;
h) Partlayıcı və zəhərləyici maddələr;
x) Həkimin müvafiq icazəsi olmadan psixotrop maddələr.

**Maddə 9. Davranış Kodeksinin pozulmasına görə məsuliyyət**

Bu kodekslə müəyyən edilmiş davranış normalarının şagird tərəfindən pozulması Gürcüstanın "Ümumi təhsil haqqında" qanununda və məktəbin daxili qaydaları ilə nəzərdə tutulmuş hallarda və müəyyən edilmiş qaydada intizam məsuliyyətinə cəlb edilməsinə səbəb olur.

## BİR MÜƏLLİM BİR NEÇƏ FƏNNİ TƏDRİS EDƏ BİLƏCƏK

Artıq baş müəllim statusu qazanmış, ancaq başqa fənn üzrə də uğurla imtahan verə biləcək müəllimlər həmin fənn üzrə baş müəllim olacaqlar və onların məktəbdə bir neçə fənni tədris etmək, müvafiq əməkhaqqı almaq hüququ olacaq.

Müəllimlərin peşə inkişafı və karyerada irəliləmə sxeminə əsasən, üç status var:

- **Baş müəllim;**
- **Aparıcı müəllim;**
- **Mentor müəllim.**

Müəllim bir fənn üzrə baş müəllim, digər fənn üzrə isə aparıcı və ya mentor müəllim ola bilməz. Hökumətin sərəncamında yazılıb ki, müəllimin yalnız bir statusu ola bilər. Ona görə də, əgər baş müəllim başqa fənn/fənlər imtahanında da minimal keçid balını aşarsa o, həmin fənn/fənlər üzrə baş müəllim olacaq.

Məsələn, əgər baş müəllim statusu olan riyaziyyat müəllimi fizika, kimya, coğrafiya və ya başqa hər hansı fənn üzrə imtahanda minimal keçid balını aşarsa həmin istiqamətlərdə də baş müəllim hesab olunacaq.

Bu qayda aparıcı və mentor müəllimlərə də aiddir. Əgər onlar fənn kompetensiyasını başqa istiqamətlərdə də təsdiq edərlərsə həmin fənn üzrə aparıcı və ya mentor müəllim hesab olunacaqlar, status qazanmaq üçün məcburi fəallıqlardan keçməli olmayacaqlar.

## MÜƏLLİMİN ŞƏXSİ HƏYATI TOXUNULMAZDIR VƏ QANUNLA QORUNUR

"Ümumi təhsil haqqında" qanunda şəxsi həyatın toxunulmazlığına ayrıca maddə ayrılıb. Sənəddə yazılıb ki, şagirdin, valideynin və müəllimin şəxsi həyatı toxunulmazdır. Onlardan öz şəxsi həyatları barədə məlumat verməyi tələb etmək olmaz.

Məktəb şagirdin, valideynin və müəllimin şəxsi məlumatlarını yalnız qanun və Gürcüstanın Ümumi İnzibati Məcəlləsinin tələbləri ilə hərəkət edərək toplaya, saxlaya bilər.

Şagirdin akademik iştirakı haqqında məlumat intizam göstəricilərindən ayrı saxlanılmalıdır.

Məktəbin şagirddən və müəllimdən müxtəlif xəstəliklər, spirtli içkilər, narkotiklərlə bağlı tibbi yoxlayışdan keçməyi tələb etmək hüququ var. Məktəb müvafiq tibbi yoxlayışdan keçmənin əlçatanlığını təmin etməlidir.

Şagirdin və müəllimin şəxsi həyat, özəl ünsiyyət, həmçinin şagirdin və müəllimin şəxsi istifadəsinə verilmiş məktəbin əmlakında olan mülkün toxunulmazlıq hüququnu özbaşına məhdudlaşdırmaq yolverilməzdir.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# BƏS OĞLANLAR HANI?

***Yox, yox, baxıram fikrinə, səndən oğul olmaz,***
***Canın bəcəhənnəm!***
***Mırt-mırt oxumaqdan,***
***kişi, bir qan ki, pul olmaz!***
***Mırtılda dəmadəm,***
***Qıl elm fərahəm,***
***Ol qüssəyə həmdəm;***
***Ömrün olacaq kəm,***
***Düşmən sənə aləm!..*** *(M.Ə.Sabirin "Bilməm nə görübdür bizim oğlan oxumaqdan?!" satirasından)*

Deməli elə bir zaman var imiş ki, oğlanların da oxumasına qarşı olan, oxumağın onlara fayda verməyəcəyini, pul qazandırmayacağını düşünən atalar olub. Zaman keçdikcə oğlanların oxuması adi bir hala çevrilib. Bu dəfə də oğlu oxuyan atalar tərəfindən "qız nədir, məktəb nədir", "qadın hara, işləmək hara" kimi fikirlər çıxmağa başladı. Amma şükürlər olsun ki, bu dar düşüncələrin çərçivələri də qırılıb. Əvvəlcə qızlar üçün ayrıca məktəblər açılıb, sonra onlar oğlanlarla eyni məktəblərdə oxumağa, qadınlar cəmiyyətdə fəal iştirak etməyə, çalışmağa, öz hüquqlarını müdafiə etməyə başlayıblar və mətbuatda bu haqda məqalələr çap olunub və günümüzdə də bu məsələlər aktualdır. Məhz bunların sayəsində bu gün cəmiyyətdə öz mövqeyimizi tutmuşuq. Bunun özü böyük xoşbəxtlikdir. Bilmirəm nədəndir, biz həmişə bərabərlikdən danışırıq, amma bunu yarada bilmirik. Niyə belə düşünürəm?

Bu gün hər sinifdə ortalama olaraq 20-25 şagird oxuyursa, onların yarısı qızlardır. Və maraqlısı budur ki, sinifdə dərs oxuyanların çoxu da elə onlardır. 20-25 nəfərdən, necə deyərlər, vur-tut 1-2 oğlan oxuyan olur. Onlar da ancaq 9-cu sinfə qədər oxuyurlar. Ondan sonra oxumaq bir yana, məktəbə çanta, kitab, dəftər belə gətirmirlər. Eləcə də digər sahələrdə. Məsələn, kiçik bir tədbir olur, iştirak edənlərin əksəriyyəti qızlardır, oğlanların sayı isə bir əlin barmaqlarının sayını keçmir. Hələ elə oğlanlar da var ki, qızların çoxluq təşkil etdiyi məkanlarda vaxt keçirmirlər. Niyə? Yoxsa bundan utanırlar, çəkinirlər və ya onlarla eyni məkanda olmağı özlərinə sığışdırmırlar? Amma təbii ki, bunu bütün oğlanlara şamil etmək olmaz. Qızlarla eyni məkanda, tədbirdə iştirak edən, müxtəlif layihələr hazırlayan oğlanlar da var. Onların da qarşılaşdığı bir "maneə" var ki, bu da başqa oğlanlardır. Bu "ikiayaqlı maneələr" dərs oxuyan, lövhənin qarşısına çıxıb dərs danışan həmcinslərini lağa qoyurlar.

İş orasındadır ki, qızlar cəmiyyətdə fəal iştirak etməyə başladıqca oğlanlar reytinqi tutmayan verilişlər, seriallar kimi efirdən yığışmağa başladılar – istər öz istəkləri ilə, istərsə də başqalarının təsiri ilə. Buna təsir edən bir amil də "Oxumur, oxumasın. Oğlana nə var, o lapatkayla sement də qarışdırar. Əsas odur, qız oxusun" düşüncəsidir. Qızlar oxusun, bununla hamı sonuna qədər razıdır, amma niyə bir zamanlar oxumaq üçün atalarına qarşı gələn oğlanların nəvə-nəticələri bu işlərlə məşğul olmalıdırlar? Əlbəttə, bu, ayıb deyil. Amma məncə, doğru da deyil. Hələ bu fikrin sahibi ali təhsil sahibi olan bir şəxs, müəllim, həkim, müdir və s. olduqda qətiyyən razılaşmıram.

Amma hər məsələdə olduğu kimi, bu məsələnin də həlli mütləq olmalıdır. Onu deyim ki, bu, qızların cəmiyyətə qaytarılmasından daha asandır, ona görə ki, oğlanlar daha öncə oxumaqda, ictimaiyyətdə öndə olublar. Buna görə də onları ən azından məktəbə qaytarmaq və "əlində lapatka tutan oğlan" fikrini unutmaq lazımdır, çünki əvvəl fikir, sonra



zikr olur və cəmiyyət məktəbdən başlayaraq inkişaf edir. Bizsə onun tərəzisini hələ də tarazlığa gətirə bilməmişik. Bu dəfə mənə elə gəlir ki, ağır tərəfi qızların payına düşüb. Bərabərlik istəyən isə öz qramını əlavə etməlidir. Etməlidir ki, gələcəkdə "bəs oğlanlar hanı?" deyə sual yaranmasın.

**Çiyalə Osmanova**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# DƏRDLƏR



"Bir sıxıntının keçəcəyinə olan inanc ona dayanmağın tək yoludur".

Bəşər tarixində dərd, problem həmişə var olub. Problemlərin biri bitən kimi başqası başlayır, hər birini çəkmək məcburiyyətində olur insan. Bəzən öz dərdlərini, bəzən isə bütün insanlığın dərdini çəkir.

Hər birimizin həyatında sıxıntılar var, heç birimizinki gül bağçası deyil. Ancaq dərdi verən Allah dərmanını da verər. Bu, həmişə belə oldu və dünya fırlanmağa davam etdiyi müddətcə də belə olacaq.

İnsanın içində o sıxıntının keçəcəyi ilə bağlı əmələ gələn o hiss... O hiss ki, insana bütün çətinliklərin bir gün bitəcəyinə olan inancını qorumağa kömək edir.

Dərdsiz yaşamaq mümkün olmasa da, faydası ziyanından çox olduğuna görə sevilə biləcək dərdlər tapmaq və onları çəkmək mümkündür. Dünyada adını əbədi yazdırmış sənətkarları, şairləri, yazarları düşünün. Oxuyarkən oxucuya yaşatdıqları duyğuları düşünün, yaşadıqları hissləri insana o qədər dərindən ötürüblər ki. Hamısının olmasa da bir çoxunun həyatını araşdırsanız o an yaşadıqları dərdlərə dayanaraq yazdıqları aydın şəkildə görsənir. Şairlər həmişə, bəlkə bütün ömürləri boyu dərdlə həmdəm olurlar. Şeirin vasitəsilə şairin çəkdiyi dərdləri, qəlbinin çırpıntılarını eşidirik. Şairlər əslində dünya dərdlərinin tərcüməçisidirlər. Onlar yaşadıqları dövrün dərdlərini xalqın səsi ilə çatdırmağa çalışıblar. Dərd deyəndə sızıltı, ağrı, ağlamaq yada düşməməlidir. Dərd insana ona görə verilir ki, həyatın, gözəlliyin qədrini bilsin və bu dərdləri dəf edə bilsin. Həyatı gözəlliyi ilə yaşamaq mənalıdır.

Hər kəsin dərdi var – varlının, kasıbın, işləyənin, iş axtaranın... Həyatımızda pis, yaxşı baş verən heç bir şey boşuna olmur. Bunu çox yaxşı bilirəm, ona görə də başınıza gələn hər hadisədə onu özünüzə ağır bir yük etməməyə çalışın. Bunun sizə zərərdən başqa heç bir faydası olmayacaq. Əvvəlcə yaxşı tərəflərini axtarın, çünki vaxt gəlir, insan dönüb arxaya baxdıqda vaxtında özünə dərd elədiyi şeyin fərqinə varır. Mən belə kiçik bir şeyi özümə niyə dərd edirəmmiş deyir. "Həyat irəliyə baxaraq yaşanır, geriyə baxaraq isə başa düşülür".

Heç bir problem əbədi deyil. Asan deyil problemlərlə qarşılaşmaq, onların həllini tapmaq. Hər yaşın öz problemləri var. Gənclərin, böyüklərin, yaşlıların, hər kəsin fərqli-fərqli problemləri var. Böyüklər dolanma dərdi, iş dərdi çəkir, yaşlılar ağrılarının, dərmanlarının dərdini, gənclər isə gələcəyin dərdini. İnsanları dinləməyə çalışmalıyıq, heç bir şey etməsək də sadəcə dinləməyin özü belə qarşındakı insana bir nəbzə olsa həmdəm ola bilər. Heç olmasa ehtiyacı olanlardan bunu əsirgəməyək. Bəzən insan "Mən yaxşıyam" dediyində gözlərinin içinə baxıb "Yaxşı deyilsən, bilirəm" deyəcək birini axtarır.

İnsanların ən böyük dərdlərindən biri də "caamat nə deyər" düşüncəsidir. Axı niyə hər gün eyni paltarlarla çölə çıxmağa utanan insanlar, hər gün eyni düşüncələrlə çölə çıxmaqdan utanmazlar? Kimin nə yaşadığını bilib-bilmədən sadəcə danışırlar. Amma sizi kiminsə baxışları, tənqidləri narahat etməsin. Çünki danışmaqdan başqa əllərindən heç bir iş gəlməyənlərin məşğuliyyətləri budur. Siz sadəcə özünüzün üzərinizdə çalışın, elə yerə gəlin ki, başda sizi tənqid edənlər sonra sizi təqlid etsinlər. Gözünüzü açın və ətrafınıza baxın. Gözəllikləri görün. Küləyin iliq nəfəsini, yağışın qoxusunu duyun. İnanın ki, bunların fərqinə vardığınız an dünyanın ən xoşbəxt insanı siz olacaqsınız. Həyat çox gözəldir, ona insanların tənqidindən qaçıb gizləndiyiniz yerdən baxmayın. Onlar sadəcə danışacaqlar, əgər siz etdiyiniz şeyin fərqindəsinizsə və doğru bir şey etdiyinizə inanırsınızsa dayanmayın, dinləməyin ətrafdakı səsləri. Etdiyiniz xətaları danışırlarsa, o zaman siz də xətanızı qəbul edəcək qədər böyük, o xətadan dərs çıxara biləcək qədər ağıllı və o xətanızı düzəldə biləcək qədər güclü olun!

**Aytən Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

İndi "Dədə Qorqud"un boylarında bir çox şeirin təhlili bizi çox uzağa aparar və lazım da deyil, çünki yeni bir şey verməyəcək bizə. Lakin müəyyən yenilik təklif edən bəzi nümunələr üzərinə hər halda diqqətimizi çəkməliyik.

Bu dəfə şəfəqin şölə saçmasını əks etdirən şeiri yenə də gətirmək istəyirəm ki, buna qarşı da mən artıq bu şeirin obrazı ifadə etməsinə və çalarlarının zərifliyinə görə öz fikrimi ifadə etdim. Lakin bu dəfə onu bu ritmik strukturun baxış dairəsi ilə müzakirə etmək istəyirəm. Şeir 12 hecalı sətirlə başlayır və sonra onu 10 hecalı, 14 hecalı, 15 hecalı və 17 hecalı sətirlər əvəz edir. Bu şeirin sətirlərinin hecalarına münasibətlər sxemi belə təqdim olunub: I) 2+2+1+3+4=12; II) 3+2+3+4=12; III) 3+2+1+2+4=12; IV) 3+2+3+2+4=14; V) 2+3+3+2=10; VI) 2+3+3+2+3+2=15; VII) 2+2+2+3+1+3=13; VIII) 1+3+4+4+3+2=17. Aşkardır ki, bu şeirin başlanğıc sətirləri ritmik konstruksiyaya uyğun olaraq dolğundur, ritm ünsürü də dörd hecalı seqment ilə təqdim olunub. Lakin sonra ritmik konstruksiyanın pozulması halı baş verir ki, bu da qanunauyğunluq çərçivəsinə yerləşə bilmir. Halbuki, təhlil olunan şeirin qavranılması səmərəsinin itməməsi təqdirəlayiqdir. Mənim fikrimcə, bu şeir evfonik səviyyəsi ilə zəngindir ki, bu da şeirin srtrukturunun üfüqi və şaquli məhvərlərində aşkar edilmişdir. O cümlədən, şaquli məhvərdə səslərin sonrakı münasibətinə rast gəlirik: Sal-qum//Sal-qum, gay-say, goga, dağ-değ, şaquli məhvərdə isə sözün başlanğıcı mövqeyində bizə rast gəlir: Sak-sak-sak-sak, sözün sonu mövqeyində isə ritmlik ünsürlərin bu cür təkrarı varımızdır: Əsdigində-adıqda-adıqda-adıqda adıqda çağda-çağda-dəgəndə-çağda. Düşündürücü haldır ki, məhz elə evfonik səviyyənin zənginliyi bu şeirin ritmik nöqsanlarını örtür.

Lakin elə burada qeyd etməyə bilmərəm ki, "Dədə Qorqud"un bədii mətnində ritmik strukturun qanunauyğunluğu tədricən özünü büruzə verir, əksər hallarda da bu cür sxemlə təqdim olunur. Dörd hecalı sxem 4+4+4 ($2+2^{1}+2+2^{1}+2+2$=4/4+4; və ya 2+2+4+2+2=4/4/4, ya da 4+4+2+2/4/4/4). Bizə başqa sxemlər də rast gəlir: 2+2+3 (7), 4+3 (7), 1+3+3 (7), 2+3+3 (8), 1+3+4 (8), 2+3+3 (8). Eyni zamanda 7/8 hecaların bir şeir çərçivəsində əvəzlənməsi təbiidir və xalq şeiri üçün xarakterikdir. Lakin hecalara bu cür münasibət də bizə rast gəlir: 9/7/8/10, bu da yenə ondan xəbər verir ki, birincisi, Oğuz şeir strukturu həmin vaxtlar formalaşmamışdır, ikincisi, bu şeirlər oxunur, mahnı zamanı intonasiya və avazın dəyişməsilə bu qüsurların düzəldilməsi asandır. Halbuki, artıq qeyd etdiyim kimi, hər halda əsas vurğu sətrin sonlarına edilirdi ki, bu da heç də nadir hallarda olmayaraq sözlər qrupunu və istərsə də tam cümləni təşkil edirdi. Dədə Qorqud Dirsə xanı oğlunun həvəsləndirilməsinə çağıranda bu cür kəlməni təkrar edir: "Hey Dirsə xan, beglik vergil bu oğlana, taxt vergil, erdemlidir" və ya onu əvəzləyən "hünerlidür" leksik vahidini işlədir.

Sonra Dirsə xanın verməli olduğu şeylərin (bəylik, at, qoyun, dəvə, altun başlı ev və sair) sadalanması gəlir, lakin ritmlik hesab olunan sözlər dəyişməzdir və təkrar olunur: erdemlidir, hünerlidür. Bu təkrarlama isə oxucuda təlqin və təsir gücünü kəsb etdirir.

Burada mütləq vurğulamalıyam ki, təhlil olunan şeirləri, eləcə də sətrin sözün başlanğıcı mövqeyində səslərin, hecaların, söz və istərsə də cümlələrin təkrarı və yaxud poetikada anafora olaraq adı çəkiləni xarakterizə edir, bu da ki, şeiri kompozisiya olaraq qaydaya salır, semantik olaraq zənginləşdirir və ən başlıcası, şeirin emosiya, istərsə də estetik arenasını artırır, onu daha çox təəssürat oyadıcı edir və anaforaya heç də az rast gəlməyimizə baxmayaraq, o hər halda kanonik xarakter deyildir və qanunla qaydaya salınmamışdır.

Burada bir neçə nümunə gətirək:

***...Altun yüzük senin degil-dir,***
***Altun yüzükdə çok nişan var-dur,***
***Altun yüzügi istər-isən nişanın söylə!*** *(O.D.D.K.K., səh. 95).*

Şeirlər silsiləsinin son üç sətrinin başlanğıc pozisiyasında altun yüzük sintaqmının müxtəlif hallarda təkrarı və eyni zamanda üfüqi səviyyədə fonemlərə münasibətdə zəngin səslənməni gücləndirir və Bamsı Beyrəklə onun yavuqlusu, nişanlısı, sevgili adaxlısının gələcəyi barədə həlledici rol oynamalı olan qızıl üzüyün əhəmiyyətindən danışır.

Əgər o şeirdə nida formasında üzərə çıxırsa və növbəti demək olar ki, bütün sətirlər təkrarlanırsa daha kəskin təəssürat oyadır. Öz-özlüyündə peşmançılığı və kədəri əks etdirən bu nida konkret halda bir növ kədər təbilinin çalınmasını bizə xatırladır. Barı, dinləyək:

***Vay al duvağum eyesi!***
***Vay alnum, başum umudı!***
***Vay şah yigidum!***
***Vay şehbaz yigidüm!***
***. . .***
***Vay Kazan Begün ınağı***
***Vay kulın oğuzun ımrencesi Beyrek!*** *(Elə orada, səh. 81)*

Daha çox yayılan sətrin son pozisiyasında səslərin, sözlərin, cümlələrin təkrarlanmasını, daha doğrusu, epiforanı, müəyyən olunduğu kimi, ritmin funksiyasını da yerinə yetirir, bu aspektdə müzakirə etməliyik. Sətirlərin semantik baxış dairəsi ilə qarşılıqlı qarşıdurma başqa cür ilk sətirdə hansı bədbəxtliyin baş verməsi rəmzi olaraq verilmişdir. Lakin ikinci sətirdə qeyd edilmişdir ki, ozanın bu barədə xəbəri yoxdur. Məhz elə bu sonuncu cümlənin təkrarlanması ilə deyiləcək sözün əsas qayəsi özünü büruzə verir. Belə məsələn:

***Qarşu yatan qara dağım yıqılubdur,***
***Ozan, sənin xəbərin yoq.***
***Kölgəlicə qaba ağacım kəsilübdür,***
***Ozan, sənin xəbərin yoq.***
***Dünyəlikdə bir qardaşım alınubdur,***
***Ozan, sənin xəbərin yoq.***
***Çalma, ozan, ayıtma, ozan!*** *(Elə orada, səh. 88-89).*

Gətirilən çıxarışda bütün sətir təkrar olunur: "Çalma, ozan, ayıtma, ozan" baş verən bədbəxtlik barədə: (Qarşu yatan qara dağım yıqılubdur. Kölgəlicə qaba ağacım kəsilübdür və sair) və bu təkrarlama isə bir tərəfdən Beyrəyin başına gələn bədbəxtliyi tündləşdirir və ikinci tərəfdən qəhrəmanın tələbini doğruldur ki, ozan düyündə çalmamalıdır.

Bu cür bütöv sətrin təkrarlanması başqa kontekstdə bizə rast gəlir. Buğac öz anasına izah etmək istəyəndə ki, Qazlıq dağı və onun sakini deyil, onun atası günahkardır:

***Qazlıq dağının günahı yoqdur.***
***Bitərlidə otlarına qarğamağıl,***
***Qazlıq dağının suçı yoqdur.***
***Qaçar keyiklərinə qarğamağıl,***
***Qazlıq dağının günahı yoqdur.***
***Arslanla qaplanına qarğamağıl,***
***Qazlıq dağının suçı yoqdur.***
***Qarğar isən, babama qarğa,***
***Bu suç, bu günah babamdandır!***

Nümunələri yenə çox gətirmək olar, lakin düşünürəm ki, yuxarıda gətirilən də kifayətdir. Ona inanmaq üçün ki, sətrin başlanğıcında sədaların, istərsə də bütün cümlələrin təkrarı ilə ozan öz poetik düşüncələrinin məqsədinə çatmağa nail olur ki, bu da estetik arenanı yaratmaqdan və dinləyiciyə, istərsə də oxucuya kontekstin müvafiq müsbət, istərsə də mənfi əhvali-ruhiyyəsini oyatmaqdan başqa bir şey deyildir. Diqqətəlayiqdir ki, buna ədəbiyyatda artıq yaxşı bərqərar olunmuş hər cür bədii trafaretsiz danışıq dili ilə nail olur. Barı, xatırlayaq:

***Yağrının-da qa-l-qan oy-nar ba-ba-sı-nın***
***Qa-dir qo-r-sa, başın kə-sə-yim!***
***(Ya varmayam? )Ya g-ələm, ya gəlməyəm,***
***Ya qa-ra buğ-ra-nın***
***köksi altında qa-lam!***
***Və -ya bu-ğanın buy-nuzında ilişəm.***
***Ya qa-ğ-an asl-anın qa-y-nağında di-di-ləm.***
***Ya varam, ya varmayam,***
***Ya gələm, ya gəlməyəm!..*** *(K.D.Q. 114)*

Və bu şeir "Yenə görüncə bəg baba, xatun ana, əsən qalun!" kəlməsi ilə bitir.

*(davamı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:*

**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## URBANİZASİYA
## 22. KİÇİK VURDENİN BÖYÜK CAZİBƏSİ



*(əvvəli ötən sayda)*

Vurden (Voerden) Utrextə tabe kiçik, təxminən 50 min nəfərdən bir qədər çox əhalisi olan bir şəhərdir. Şəhərin səliqə-sahmanı, təmizliyi barədə danışmaq isə artıq vaxt itkisindən, oxucular üçün başağrısından özgə bir şey deyil. Nədən ki, təmizliyi tərəddüd etmədən Niderlandın simvollarından biri saymaq olar. Vəssalam, bu, birmənalı şəkildə belədir. Bu barədə mübahisə aparmaq, dönə-dönə bu mövzunun üzərinə qayıtmaq da artıqdır. Təmizlik məsələsi bu ölkədə kökündən, yerli-dibli həll edilərək, gündəlikdən çıxarılıb. Aman Tanrım, mən bu təmizlik məsələsini nədən uzadıram, heç özüm də bilmirəm.

Dəmir yolu vağzalından bir az üzü yuxarı dikləndinmi küçənin sol tərəfində kiçik nohurlu, o qədər də böyük olmayan park diqqətini cəlb edəcək. Parkdan bir qədər yuxarıda, kanalın üstündəki körpüyə çatdınmı qarşında Vurdenin əzəmətli mənzərəsi canlanacaq. Mart küləklərinin soyuğu canıma işləsə də, mən uzun-uzadı bu qeyri-adi mənzərəyə baxmaqdan yorulmuram. Bir neçə rakursdan gördüyüm mənzərəni telefonumun yaddaşına köçürməyi də unutmuram. Bu arada, insan yaddaşının yaşlaşdıqca adama xəyanət etdiyini də düşünürəm. Yəqin ki, bu düşüncəmdən dolayı sifətimə acı təbəssüm də qonmuş olmalı idi. Ancaq mən bunu fərq edəcək durumda deyildim. Vurdenin bu axşam mənzərəsindən aldığım ləzzətin ömrünü uzatmağa çalışırdım.

Uzaqdan görünən, XIX yüzilliyin sonlarında inşa olunmuş Sint-Bonaventurakerk katolik kilsəsinin özünəmi, yoxsa illüziyaya qapılaraq kanalın mavi sularında axdığını güman etdiyim əksinəmi baxmağın doğru olduğunu düşündüm bir ara. Hər iki görüntünün möhtəşəmliyini demədən keçməyim. Kanalda üzən, bu ümumi mənzərənin baxımlılığını daha da artıran bir dəstə qu quşu isə gündəlik ruzi çıxarmaqla məşğul idi. Düzdür, qu quşların gündəlik qida rasionlarında insanların səxavətlə onlara verdikləri təamların rolu olduqca çoxdur. Bunu mən bir qədər sonra, kilsəyə yaxından baxmaq üçün yaxınlaşarkən, daha dəqiq anladım. Kilsənin ön tərəfindəki yaşıllıqda onları nəyəsə qonaq edən xeyli adam gördüm və mən də bu insanların arasına qarışaraq, yaxınlıqdakı marketdən aldığım biskvitləri onlara atmaqla həm xeyli əyləndiyimi, həm də bir savab iş gördüyümü düşündüm.

Kanalın üzərindəki körpünün məhəccərinə söykənərək qarşımda açılan mənzərənin heyrətamizliyini seyr etməmi sizlərə anlatmışdım. Bu mənzərənin arxa fonunda gözümə dəyən yel dəyirmanının pərləri, uzun müddət durduğum körpüdən aralanmama və şəhərin bir-iki səmtinə baş çəkməmə səbəb oldu.

Vaxtın azlığına görə bir-birinə paralel iki-üç küçəni dolaşdım. Mənim dolaşdığım küçələr Vurdenin əsas, görməli küçələrindən olmalı idi. O üzdən ki, baş çəkdiyim bu küçələrdəki iki-üç mərtəbəli evlərin əksəriyyətinin birinci mərtəbəsi dükanların, restoran və kafelərin reklam lövhələri ilə süslənərək müştərilərin təşrif buyurmasını gözləyirdi. Restoranların küçə boyu səkilərdə düzülmüş masalarının boşluğu diqqəti cəlb edirdi. Deyəsən, gələn-gedənləri az idi. Hələ koronavirusun qorxularının hər yeri sarmasına xeyli vaxt qaldığını, müştərilərin gəlib-getməsi üçün hələ təhlükə təşkil etmədiyini də fikrimdən keçirdim. Dondurma, hazır yeməklər satılan dükanlardakı nisbi qaynaşma restoran biznesinin Vurdendə zəifliyininmi bəlirtisi idi, yoxsa bunun başqa bir əmmasımı var idi, dəqiqləşdirə bilmədim. Demək olar ki, ölkənin böyük şəhərlərində gördüyüm ünlü markaların satıldığı alış-veriş mərkəzlərinin, eləcə də məşhur supermarket şəbəkələrinin filialları ilə Vurdendə də qarşılaşırdım.

Vurdenə səfərim çox qısa çəksə də, unudulmazdır. Səfərimin bitməsinə yarım saat qalmış oturduğum kiçik, işçilərinin eyni ailənin üzvü olduqları hər hərəkətlərindən bəlli olan, təmizliyi ilə gözoxşayan, – əstəğfürullah, yenə təmizlik, – kafenin pəncərəsindən şəhərin axşam mənzərəsini seyr edərkən, səfərimin unudulmazlığına bir daha əmin oldum. Tünd kofenin bədənimə yayılan rahatladıcı ləzzətini hər bir əzamda hiss edərək, bu gözəl məkanın pəncərələrinə düzülmüş böyük güldanlardan mənə baxan təzətər lalələrin gözəlliyindən aldığım enerji isə, bu qənaətimin doğruluğuna şübhə yeri qoymurdu. Və mən beş-on dəqiqədən sonra bu kiçik şəhərdən ayrılacağımın həyacanını, burada yaşadığım möcüzə dolu anların arxada qalıb xatirəyə çevriləcəyinin təəssüfünü də yaşamaqdaydım.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

# "GƏNC VƏKİLLƏR": GÜRCÜSTANDA SON ÜÇ İLDƏ 33 400 CÜTLÜK BOŞANIB

"Gənc vəkillər" təşkilatı boşanma və evlənmələrlə əlaqədar araşdırmanın nəticələrini yayımlayıb. Nəticəyə əsasən, boşanma hallarının göstəricisi yüksəkdir.

"Gənc vəkillər"in hüquqşünası Lizi Zuxbaianın açıqlamasına görə, əgər ər və arvad arasında mübahisə varsa boşanma məhkəmə qaydası ilə olur, digər hallarda isə boşanma vətəndaş aktlarının qeydiyyatı orqanında həyata keçirilir. Əksər hallarda tərəflər məhkəməyə müraciət etmək yolu ilə boşanma forması seçirlər, ancaq, ola bilər, məhkəmənin boşanma ilə əlaqədar qərarı sonradan vətəndaş aktlarının qeydiyyatı orqanına təqdim olunmasın. Rəsmi göstəriciləri nəzərə alan zaman qeydiyyat orqanında olan məlumata əhəmiyyət verilir. Bu baxımdan təşkilat 2019-cu ilin 1 yanvarından 2022-ci ilin 13 aprelinə olan vəziyyəti araşdırıb. Aydın olub ki, boşanma statistikası hər il artır. Son 39 ayın göstəricilərinə görə, Gürcüstanda 33 400 boşanma qeydiyyatı həyata keçirilib. 2019-cu ildə 11 352, 2022-ci ildə 7 724, 2021-ci ildə 10 788, 2022-ci ilin ilk üç ay yarımlıq qismində 3 536 boşanma ərizəsi qəbul edilib. Ümumilikdə bu göstərici məhkəmə qərarı əsasında, həmçinin cütlüyü qeydiyyatdan keçirən orqana təqdim edilmiş və boşanma ilə bağlı bəraət qazandırılmış ərizənin göstəricisini birləşdirir.

Təşkilatın 2019-cu ilə qədər olan dövrdə də boşanma haqqında statistik göstəriciləri var. Söhbət 2015-2018-ci illərdə mövcud olan vəziyyətdən gedir. Həmin dövrdə Gürcüstanda boşanma sayı 37 892 təşkil edirdi. İllərə əsasən bu göstərici 2018-ci ildə 8 845, 2017-ci ildə 10 452, 2016-cı ildə 9 513, 2015-ci ildə 9 082 idi. 2019-2022-ci ilin birinci yarısının və 2018-2015-ci illərin tam göstəricisi demək olar ki, eynidir. Artan boşanma göstəricisi heç bir sosial faktordan yaranmayıb. Ancaq ən çox nəzərəçarpan boşanma göstəricisinin gənclər arasında daha yüksək olmasıdır. Səbəbləri qısa şəkildə qeyd edə bilərik: erkən yaşda evlilik və ailənin idarəolunması prosesində məsuliyyət çatışmazlığı, birgə yaşam prosesinə üçüncü şəxslərin müdaxiləsi, ailədə zorakılıq, qısqanclıq və xəyanət faktları, şəxsi uyğunsuzluq. Təşkilatın araşdırmasına əsasən, əksər hallarda boşanmanın təşəbbüskarı qadınlardır.

Həmçinin evlilik müqaviləsinə evli şəxslərin mental, institusional və hüquqi yanaşması təşkilatın marağına səbəb olub. Təşkilat qeydiyyatdan keçirilmiş evlilik müqavilələrini, eləcə də onların ləğv edilmə göstəricilərini araşdırıb. Aydın olub ki, 2019-cu ilin 1 yanvarından 2022-ci ilin 13 aprelinə qədər ümumilikdə 205 evlilik müqaviləsi təsdiqlənib. 2019-cu ildə 40, 2020-ci ildə 39, 2021-ci ildə 126 evlilik müqaviləsi bağlanıb. Həmin dövrdə 3 evlilik müqaviləsi ləğv olunub. Təşkilatın 2019-cu ilə qədər olan dövrdə də evlilik müqavilələri haqqında statistik məlumatı var. Söhbət 2015-2018-ci illərdə olan vəziyyətdən gedir. Həmin dövrdə Gürcüstanda notarius qaydası ilə 151 evlilik müqaviləsi təsdiqlənib. Həmçinin həmin dövrdə 3 evlilik müqaviləsi ləğv edilib. 2022-ci ilin birinci yarısına olan göstəricilərə görə, heç bir evlilik müqaviləsi bağlanmayıb və ləğv olunmayıb. Evlilik müqaviləsini bağlamaq daha çox funksiya əhəmiyyəti daşıyır. 2015-2022-ci ilin göstəricilərinə görə, 356 evlilik müqaviləsi bağlanıb və qeydiyyatdan keçirilib, 6 müqavilə isə ləğv olunub.

Qeyd edək ki, Gürcüstan Mülki Məcəlləsinin 1172-ci maddəsinə əsasən, cütlüklər evlilik müqaviləsi bağlaya bilərlər. Müqavilə ilə onların əmlak hüquqları və evlilik ərzində, eləcə də boşanma halında öhdəlikləri müəyyən edilir. Evlilik müqaviləsi evliliyin qeydiyyatdan keçirilməsinə qədər, eləcə də qeydiyyatdan sonra istənilən zaman bağlana bilər. Evlilik qeydiyyatdan keçirilənə qədər bağlanan müqavilə evlilik qeydiyyatdan keçirilən kimi qüvvəyə minir. Evlilik müqaviləsi yazılı şəkildə bağlanır və notarius qaydası ilə təsdiqlənir. Müqavilə artıq mövcud olan və gələcəkdə əldə olunacaq əmlak üçün bağlana bilər. Maraqlanan həyat yoldaşının ərizəsi əsasında, üzrlü səbəblər olduğunda məhkəmə evlilik müqaviləsinin həyat yoldaşlarından birini əlverişsiz vəziyyətdə qoyan şərtlərini dəyişə bilər.

Təşkilat məsələ üzərində işləməyi gələcəkdə də planlaşdırır. Verilən məlumatın analizi isə Gürcüstan Notarius Palatası və Dövlət Xidməti İnkişafı Agentliyindən əldə edilmiş material əsasında edilib.

*Mənbə: medianews.ge*

***Gürcü dilindən tərcümə: A.Əliyeva***

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

Yeni YOL

*15 OKTYABR 2022-Cİ İL № 019 (166)*

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# MİLLİ MÜƏLLİM MÜKAFATINI ROLAND ŞAVADZE QAZANIB



2022-ci ilin Milli Müəllim Mükafatının sahibi **Roland Şavadze** olub. Roland ali təhsilini bitirdikdən sonra Xulo bələdiyyəsinin Mekeidzelər kəndinin ictimai məktəbində ingilis dili müəllimi işləməyə başlayıb. Bundan sonra Roland öz şagirdlərinə yeni imkanlar göstərməyə və onlara bu imkanlardan yararlanmağı öyrətməyə çalışıb.

Qalibə pül mükafatı olaraq kampaniyanın baş sponsoru Qudavadze-Patarkatsişvili Fondu tərəfindən **15 000 lari** verilib. Ən yaxşı onluğun digər üzvlərini isə “Liberty Bank” mükafatlandırıb.

Milli Müəllim Mükafatı Təhsil Koalisiyasının, Gürcüstanın Təhsil və Elm Nazirliyinin, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 mayında təsis edilib. Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 6-cı dəfədir həyata keçirilir. Mükafat müəllim peşəsinin populyarlaşdırılmasına istiqamətlənmiş qlobal kampaniya – “The Global Teacher Prize”ın bir hissəsidir.

*Müsabiqənin baş sponsoru Qudavadze-Patarkatsişvili Fondu, qızıl sponsoru isə “Liberty Bank”dır. Dəstəkçilər Gürcüstanın Təhsil və Elm Nazirliyi, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz, İlia Dövlət Universiteti, “EPAM Georgia”, Konsultasiya və Təlimlər Mərkəzi (ctc), Birinci kanalın “Telemaktəb” layihəsi və “Maverik” rəqəmsal-kreativ agentliyidir.*

# GÜRCÜSTANDA ƏMƏKHAQLARI 9,5 % ARTIB



Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına əsasən, 2021-ci ildə ölkədə işlə təmin edilənlərin orta aylıq əməkhaqqı ötən illə müqayisədə 9,5 % (113,5 lari) artaraq 1 304,5 lari təşkil edib.

Məlumata görə, 2021-ci ildə ötən illə müqayisədə əməkhaqlarının artması bir çox sektorda qeydə alınıb.

Fəaliyyət növlərinə əsasən müqayisədə yüksək əməkhaqqı sonrakı sahələrdə qeydə alınıb:

- Maliyyə və sığorta işi – 2 368,1 lari (ötən illə müqayisədə 9,8 faiz artıb);
- Peşə, elmi və texniki işlər – 2 075,3 lari (ötən illə müqayisədə 12,0 faiz artıb);
- İnformasiya və kommunikasiya – 2 030,9 lari (ötən illə müqayisədə 7,7 faiz artıb).

2021-ci ildə qadınların orta aylıq əməkhaqqı 1 055,5 lari, kişilərinki isə 1 537,9 lari təşkil edib.

“Əməkhaqlarının illik artımı qadınlarda 10,8 faiz, kişilərdə 9,2 faiz təşkil edib. İş növlərinə görə bütün sahələrdə kişilərin orta aylıq əməkhaqqı qadınların orta aylıq əməkhaqqından çoxdur.

2021-ci ildə dövlət sektorunda işlə təmin edilənlərin orta aylıq əməkhaqqı qeyri-hökumət sektorunda işlə təmin edilənlərlə müqayisədə 291,4 lari az idi. 2020-ci illə müqayisədə dövlət sektorunda əməkhaqqı 9,1 faiz, qeyri-hökumət sektorunda isə 9,6 faiz artaraq 1 117,2 və 1 408,7 lari təşkil edib.

2021-ci illə müqayisədə işçilərin orta aylıq əməkhaqqı istehsal (biznes) sektorunda 10,2 faiz artaraq 1 347,6 lari təşkil edib. İş növlərinə görə ən yüksək əməkhaqqı peşə, elmi və texniki işlərdə (2 346,2 lari, ötən illə müqayisədə 11,6 faiz artıb), eləcə də informasiya və kommunikasiya (2 045,3 lari, ötən illə müqayisədə 6,9 faiz artıb) sahəsində qeydə alınıb.

2021-ci ildə qeyri-istehsal və maliyyə sektorunda orta aylıq əməkhaqqı ötən illə müqayisədə 8,1 faiz artaraq 1228,0 lari təşkil edib. İş növlərinə əsasən müqayisədə maliyyə və sığorta işləri sahəsində çalışanların əməkhaqları yüksəkdir.

Orta əməkhaqqının yüksəkliyinə görə regionlar arasında Tbilisi şəhəri və Mtsxeta-Mtianeti bölgəsi liderlik edir”, - deyə məlumatda bildirilir.

*Mənbə: etaloni.ge*

# YANVAR-İYUN AYLARINDA GÜRCÜSTAN İQTİSADİYYATINA 922,9 MİLYON DOLLAR İNVESTİSİYA QOYULUB



Cari ilin yanvar-iyun ayları ərzində Gürcüstan iqtisadiyyatına 922,9 milyon dollar həcmində birbaşa investisiya qoyulub. Bunu Gürcüstanın iqtisadiyyat naziri Levan Davitaşvili parlamentdəki çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, bu göstərici 2021-ci illə müqayisədə 102 faiz, 2019-cu illə müqayisədə isə 62,5 faiz çoxdur.

İnvestisiyaların 42,5 faizi Avropa İttifaqının payına düşüb.

Ölkədəki işsizlik probleminə toxunan nazir bildirib ki, hesabat dövründə əhalinin məşğulluğu artıb, işsizlik səviyyəsi 18,1 faizə enib.

Nazir deyib ki, 2022-ci ildə turizmin bərpası daha da sürətlənəcək. Cari ilin yanvar-avqust aylarında turizm pandemiyadan əvvəlki dövrlə müqayisədə 94,6 faiz bərpa olunub və turizmdən gəlirlər 141,6 milyon dollar təşkil edib.

# 60 MİNDƏN ÇOX RUSİYA VƏTƏNDAŞI GÜRCÜSTAN BANKLARINDA HESAB AÇIB



“2022-ci ilin fevral ayının sonundan avqustun 31-dək 60 mindən çox Rusiya vətəndaşı Gürcüstanın kommersiya banklarında hesab açıb”. Bu barədə Gürcüstanın İnformasiya Azadlığının İnkişafı İnstitutunun (IDFI) saytında məlumat verilib.

Qeyd olunub ki, yayın sonuna qədər rusların Gürcüstandakı hesablarında ümumilikdə 1,88 milyard lari (670 milyon ABŞ dollarından çox) olub. Ukraynada münaqişə başlayana qədər bu məbləğ 1,2 milyard lari az idi. Beləliklə, payızın əvvəlinə investisiyaların artımı 170 % təşkil edib.

Eyni zamanda, ruslar Gürcüstan banklarında ABŞ valyutasında pul saxlamağa üstünlük verirlər. Açıq depozitlərin ümumi sayının 72 %-ni dollar hesablarının payı təşkil edib. Müqayisə üçün, rubl hesablarına yalnız 0,06 % gedir. Vəsaitlərin böyük hissəsi tələb olunan depozitlərdə (53 %), 26 %-i müddətli depozitlərdə, 21 %-i cari hesablarda saxlanılır.

# MÜHARİBƏ BAŞLAYANDAN GÜRCÜSTANA GƏLƏN UKRAYNA VƏTƏNDAŞLARININ SAYI AÇIQLANIB



Rusiya ilə müharibənin başlamasından sonra 25 990 Ukrayna vətəndaşı Gürcüstana gəlib. Bu barədə Ukraynanın Gürcüstandakı müvəqqəti işlər vəkili Andrey Kasyanov bildirib.

Onun sözlərinə görə, Gürcüstana gələn ukraynalıların 6 980 nəfəri azyaşlılardır.

Kasyanov qeyd edib ki, Ukraynanın Gürcüstana yeni səfir təyin etməsi məsələsi ikitərəfli əlaqələrin gündəliyindədir. O, Gürcüstan və Ukrayna xarici işlər nazirlərinin bu məsələni müxtəlif formatlarda müzakirə etdiyini vurğulayıb.

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.